# Suqovuşan qəsəbəsi yeni həyata qovuşur



***Vətən müharibəsində Azərbaycan Ordusunun uğurlu döyüş əməliyyatı ilə Suqovuşan qəsəbəsi 2020-ci il oktyabrın 3-də işğaldan azad olundu. "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!" xəbərini "Twitter" səhifəsində paylaşan Prezident, Ali Baş Komandan İlham Əliyev daha sonra isə Madagizin tarixi adının bərpa edildiyini, bundan sonra Suqovuşan adlandırılacağını bildirdi. Üçrəngli bayrağımızın Suqovuşanda dalğalanması hər birimizdə böyük qürur hissi doğurdu, bütün torpaqlarımızın işğaldan azad ediləcəyinə inamı daha da artırdı.***

Həmin günlər hərbi ekspertlər bildirirdilər ki, düşməndən təmizlənən bu ərazi Ağdərə və Sərsəng su anbarı istiqamətində xüsusi önəm daşıyan yolların nəzarətdə saxlanılmasına, bununla bərabər, böyük bir ərazinin, eləcə də Ağdərənin, habelə digər sahələrin qəsbkardan alınması baxımından Azərbaycan Ordusuna böyük üstünlük yaradır.

Xatırladaq ki, Ermənistan ordusunun 6-cı dağ atıcı alayının qərargahı da məhz Suqovuşanda yerləşirdi. Həmin alayın ordumuzun uğurlu əməliyyatı nəticəsində darmadağın edilməsindən sonra Suqovuşan işğalçılardan təmizləndi. Beləliklə, Ağdərə və Ağdam şəhərlərini birləşdirən əsas təminat yolu Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçdi. Bununla da düşmənin əsas müdafiə xətti olan Ağdərə–Ağdam xəttinin mühasirəsinin reallaşmasında mühüm bir üstünlük əldə edildi. Eyni zamanda, Suqovuşan yaşayış məntəqəsinin düşməndən təmizlənməsi ilə işğalçı tərəfindən Tərtər rayonuna zərbələr endirməsinə son qoyuldu.

Şübhəsiz ki, Suqovuşanın yuxarıda qeyd edilən böyük hərbi-strateji əhəmiyyəti ilə bərabər, eyni zamanda, mühüm iqtisadi önəmi də var. Bununla bağlı bəzi məqamlara diqqət yetirək. Sərsəng və Suqovuşan su anbarları enerji təyinatlı anbarlardır. Sərsəng su anbarı 50 mqvt, Madagiz-1 su anbarı 4,8 mqvt və Madagiz-2 su anbarı isə 3 mqvt gücə malikdir. Həcmi ən böyük olan su anbarı isə Sərsəngdir. Bu, yalnız Qarabağda deyil, ümumiyyətlə, Ermənistan da daxil olmaqla ən böyük su anbarıdır.

Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar müharibəyə qədər Aran Qarabağın rayonlarını əhatə edən 97 min hektar məhsuldar torpağın suvarılması Tərtərçay üzərində qurulan Sərsəng, Suqovuşan su anbarları, Sağ və Sol Sahil magistral kanalları vasitəsilə həyata keçirilib. Otuz ilə yaxın bir dövrdə su anbarlarının işğal altında olması isə Ağdam, Ağcabədi, Tərtər, Bərdə, Yevlax və Goranboy rayonlarında əkinlərin suvarma suyu ilə təminatında böyük çətinliklər yaradıb.

Suqovuşan su anbarı və kanallar işğal altına düşməmişdən əvvəl Azərbaycanın iqtisadi inkişafında, xalqın rifahının yaxşılaşmasında xüsusi rol oynayıb, bunun nəticəsində Qarabağın kənd təsərrüfatı sürətlə inkişaf edib.

Ermənilər tərəfindən torpaqlarımıza və cəbhəyanı rayonların əhalisinə zərər vermək üçün Sərsəng və Suqovuşan su anbarlarının suyunu payızın sonunda və qış aylarında buraxılıb, suya ehtiyac olan yaz-yay aylarında isə kəsilib. Bununla da əkin sahələrinin suvarma suyu ilə təminatında çətinlik yaradılıb. Su torpaq məcralı kanallar vasitəsi ilə nəql edildiyinə görə itkinin miqdarı həddindən artıq çox olub.

Tərtər rayonunun Suqovuşan qəsəbəsi düşməndən azad edildəndən sonra işğaldan təmizlənən digər ərazilərimizdə olduğu kimi, burada da bərpa-quruculuq işləri diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva adıçəkilən qəsəbədə olarkən bu, bir daha aydın nəzərə çarpıb.

Xatırladaq ki, işğaldan azad edilmiş digər ərazilərimiz kimi, Suqovuşan qəsəbəsinə də bu gün həyat yenidən qayıdır, burada quruculuq, təmir-bərpa işləri sürətlə aparılır.

İlk olaraq ərazinin mina və partlamamış sursatlardan təmizlənməsinə başlanılıb. Qısa vaxtda uzunluğu 28,8 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında, eləcə də Tərtər və ətraf rayonların suvarma suyu ilə təmin olunmasında mühüm əhəmiyyətə malik Suqovuşan su anbarında təmir-bərpa işləri aparılıb.

Yeri gəlmişkən, işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi və yüksək texnologiyalar əsasında, o cümlədən "ağıllı" texnologiyalar bazasında müasir kəndlərin salınması, şəhərlərin yenidən qurulması bu bölgəni təkcə ölkəmizdə yox, dünyada dinamik və sürətlə inkişaf edən bir diyara çevirəcək. Rəsmi açıqlamalara görə, yaxın zamanlarda Qarabağ ərazilərinə Böyük Qayıdışa başlanılacaq, regionun daimi sakinlərinin özlərinin ata-baba torpaqlarına dönüşünə start veriləcək. Bu, ən mühüm hadisə kimi müasir Azərbaycan tarixinə yazılacaq.

Suqovuşan qəsəbəsinə çəkilmiş müasir izolyasiyalı və mühafizəli kabel xəttinin təqdimat mərasiminin keçirilməsi də bunun bariz ifadəsidir. Başqa sözlə, bu yaşayış sahəsinin "ağıllı" texnologiyalar bazasında qurulması Qarabağın dünyanın yüksək texnologiya baxımından ən diqqətçəkən bölgələrindən biri olacağından xəbər verir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdimat mərasimində məlumat verilərək bildirilib ki, "Azərişıq" ASC tərəfindən ölkədə ilk dəfə tətbiq edilən, müasir texnologiyalara əsaslanan 35 kilovoltluq izolyasiyalı və mühafizəli kabel elektrik verilişi xətləri ənənəvi hava elektrik xətlərinə nisbətən daha rentabelli və texniki baxımdan şəbəkələrin dayanıqlı işini təmin etmək üçün əlverişli innovativ həldir. Suqovuşan qəsəbəsinin elektrik enerjisi təchizatında tətbiq edilmiş 35 kilovoltluq kabel xətti məhz belə, müasir şəbəkə quruculuğu üçün əsas elementlərdən biridir. Belə ki, izolyasiya olunmuş 35 kilovoltluq yeni tip xətlərin mühafizə zonası 3-6 metrdir və bu, mövcud xətlərə nisbətən 6-10 dəfəyə qədər azdır. Mövcud naqillərdə texniki itkilər 9-12 faiz olduğu halda, müasir tipli izolyasiya olunmuş kabellərdə itkilər 3,5-4 faiz təşkil edir. Həmçinin şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik material sərfi 100 faizdən 25 faizə endirilir. İzolyasiya olunmuş kabellərdə qəza açılmalarının sayı və müddəti mövcud naqil xətləri ilə müqayisədə 60 faizədək azdır.

Məlumatda, həmçinin yeni kabel xətlərinin tətbiqi ilə yüksək gərginlik xətlərinin bilavasitə altında, yaxud yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, həmçinin insanların fəaliyyət təhlükəsizliyinin dəfələrlə artdığı, təbiət hadisələrinin elektrik veriliş xətlərinə təsirinin aradan qalxdığı da vurğulanıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevaya Suqovuşan qəsəbəsində fərdi evdə aparılmış təmir-bərpa işləri ilə də tanış olublar. Bildirilib ki, Vətən müharibəsi zamanı, hərbi əməliyyatlar nəticəsində bu qəsəbədə 16 fərdi ev qismən yararsız vəziyyətə düşüb, onlardan birinin əsaslı təmiri artıq başa çatdırılıb. Evin otaqları yüksək səviyyədə və müasir dizaynla bərpa olunub. Həyətyanı sahə abadlaşdırılıb, ərazidə ağaclar əkilib. Fərdi evlərin yerləşdiyi məhəlləyə işıq və su xətləri çəkilib, yola asfalt örtüyü döşənib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşana səfərləri çərçivəsində buradakı 144 şagird yerlik tam orta məktəb binasının vəziyyəti ilə maraqlanıb və qəsəbədə yeni tikiləcək məscidin təməlini də qoyublar.

Qeyd edək ki, işğal dövründə vandalizmə məruz qalan mədəni-dini obyektlər sırasında İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri mütləq əksəriyyət təşkil edib. Qarabağda rəsmi fəaliyyət göstərmiş 67 məscidin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb.

İşğaldan azad olunmuş ərazilərimizdə hazırda geniş quruculuq işləri aparılır, yeni məscidlər tikilir. Onlardan biri də Suqovuşan qəsəbəsində təməli qoyulan məsciddir.

Xatırladaq ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Müdafiə Nazirliyinin Suqovuşanda "N" saylı hərbi hissəsinin açılışında, avarçəkmə üzrə ilk rəsmi təlim-məşq toplantısında iştirak ediblər.

Dövlətimizin başçısının və birinci xanım Mehriban Əliyevanın səfər çərçivəsində Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlqoyma mərasimi də yaddaqalan olub.

Bildirilib ki, burada ərazi minalardan təmizlənəcək, dağıdılmış tikililərin qalıqları yığışdırılacaq, daha sonra abadlıq işlərinə başlanacaq və əraziyə uyğun bitkilər əkiləcək. Ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarı ətrafında yaradılacaq kompleksdə sahilboyu gəzinti cığırları salınacaq, oturacaqlar, söhbətgahlar quraşdırılacaq. Həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacaq, turizm məlumat mərkəzi və ictimai iaşə obyekti yaradılacaq.

Turizm İnkişaf Konsepsiyasına əsasən su anbarının ətrafında müxtəlif turizm zonalarının yaradılması planlaşdırılır. İlk olaraq 5 hektar ərazidə istirahət parkı, onun içərisində piyadaların gəzintisi üçün ərazilər, Turizm İnformasiya Mərkəzi, qayıqla gəzinti üçün platformalar yaradılacaq. Bundan əlavə, su anbarının ətrafında ictimai iaşə obyektlərinin, qonaqlama müəssisələrinin yaradılması üçün zonalar ayrılacaq. Suqovuşanın girişində olan körpünün ətrafında Tərtərçayın boyunca istirahət düşərgəsinin yaradılması planlaşdırılır.

Suqovuşan Turizm Kompleksində işlər cari ilin sonunadək başa çatdırılacaq, növbəti mövsümdə turistlərə xidmət göstərəcək. Ərazinin dağ iqlimi, gözəl təbiət mənzərələri, su anbarı kimi amillər, eləcə də Tərtərdən və Naftalandan qəsəbəyə gedən avtomobil yollarının yenidən qurulması, Suqovuşanın turizm məkanı kimi şöhrət tapacağına zəmin yaradır.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***